Milli-mənəvi dəyərlərimiz ata-babalarımızdan qalan, əsrlərin sərt sınağından keçərək dövrümüzə gəlib çıxan bir xəzinədir. O, bizə bir əmanət kimi verilib. Bu əmanəti qorumaq, onu gələcək nəsillərə ötürmək hər birimizin müqəddəs borcudur...



# Əmanət

**Bu müdrik fikirlər tanınmış aktyor, şair, dramaturq və teatr xadimi, Respublikanın əməkdar mədəniyyət işçisi İftixar Piriyevə məxsusdur. O bu sözləri gəlişigözəl kəlamlar kimi işlətməyib. Bütün bunları fikirlərində, arzularında, əməllərində, gündəlik həyatında, oynadığı rollarda, yazdığı əsərlərdə, rəhbərlik etdiyi böyük bir kollektivin - İrəvan Dövlət Azərbaycan Dram teatrının timsalında ləyaqətlə həyata keçirir.**

İftixar Fərhad oğlu Piriyev 1960-cı ildə Gürcüstan Respublikasının Saqareco rayonunun Düzəyrəm kəndində (Qaraçöp mahalı) anadan olmuşdur, 1981-ci ildə M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Ə.Hüseynzadə adına Mədəniyyət və İncəsənət Universiteti) dram-kino aktyorluğu fakültəsini bitirmiş, həmin ildən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında aktyorluq fəaliyyətinə başlamışdır. İftixar bu teatrın səhnəsində onlarla baş və aparıcı rollar oynamış, televiziya tamaşalarına, seriallara və bədii filmlərə çəkilmişdir. S.Vurğunun "Vaqif" (Əli bəy), V.Səmədoğlunun "Yayda qartopu oyunu" (Niftalı), İ.Əfəndiyevin "Büllur sarayda" və "Şeyx Məhəmməd Xiyabani" (Bayandur, Ayaz), V.Şekspirin "Kral Lir" (Edqar), N.Xəzrinin "Mirzə Şəfi Vazeh", "Gecə döyülən qapılar" (Əkbər, Xəzər), J.Anuyun "Medeya" (Oğlan), Anarın "Sizi deyib gəlmişəm", "Şəhərin yay günləri" (Vəliqulu, Namiq) və s. bədii film, teleserial və teletamaşalarında, A.Rəhimovun "Canavar balası", "Qırmızı qar" (Nofəl, Şef), Ə.Hacızadənin "İtkin gəlin" (Əbdül), R.N.Güntəkinin "Dodaqdan qəlbə" (Vədad), B.Vahabzadənin "Yağışdan sonra" (Aslan), Ə.Əylislinin "Ürək yaman şeydir" (Sərvər, Dilsuz), "Oğulla görüş" (Oğul) və s. tamaşa və filmlərdə qırxa qədər aparıcı və əsas rollar oynamış, Azərbaycan televiziyasında "Ozan" folklor toplusunun aparıcısı, bir çox ədədi-bədii verilişlərin iştirakçısı olmuşdur.

2009-cu ildə İrəvan Teatrının səhnəsində hazırlanmış dramaturq Aqşin Babayevin "Xilaskar" əsərinin tamaşasında ümummilli liderimiz Heydər Əliyevin bədii obrazını ustalıqla yaratmışdır. Respublikanın əksər bölgələrində əlli dəfədən çox oynanılan həmin tamaşa ilə o, Gürcüstan və Dağıstan Respublikalarında qastrol səfərlərində uğurlu çıxışlarına görə böyük tamaşaçı rəğbəti qazanmış, otuza yaxın fəxri fərmanla təltif olunmuşdur.

1991-ci ildə Azərbaycan Milli Dastan Teatrını yaratmışdır. 1999-2000-ci illərdə Müstəqil Azərbaycanın qurucusu, prezident Heydər Əliyevin xüsusi tapşırığı ilə AzərbaycanRespublikasının Mədəniyyət Nazirliyi tərəfindən Tiflis Azərbaycan Dövlət Dram Teatrının bərpa prosesinə rəhbərlik etmək üçün iki il müddətinə Tiflis şəhərinə ezam olunmuşdur. Hal-hazırda həmin teatr ulu öndər Heydər Əliyevin adını daşıyır və uğurla fəaliyyət göstərir.

İftixar Piriyev Tiflis Teatrının bərpasında peşəkarlıqla apardığı iş prosesinin uğurlu nəticəsinə görə 2000-ci ildə C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrına direktor vəzifəsinə təyin olunmuş, hal-hazırda da həmin teatrın aktyoru və direktorudur.

O, 2007-ci ildə, İrəvan teatrının 125 illik yubileyi zamanı həmin teatrın dirçəldilməsində və inkişafında xüsusi xidmətlərinə görə ölkə prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Respublikanın Əməkdar Mədəniyyət İşçisi fəxri adına layiq görülmüşdür.

O, hələ tələbəlik illəri dövründə, uzun müddət Gürcüstan Respublikasında Azərbaycan dilində çapdan çıxan "Sovet Gürcüstanı" qəzetinin Azərbaycan bölgəsi üzrə ştatdan kənar bölgə müxbiri olmuşdur.

İftixar Piriyev istedadlı aktyor, şair və dramaturq, publisist, bacarıqlı teatr təşkilatçısıdır. O "Yaşadığım bu ömür", "Nə qəribə yuxuymuş" şeirlərinin, ümummilli liderimiz Heydər Əliyevə həsr olunmuş "Böyük Turanın Himni" himn-poeması kitablarının, " Müstəqil vətənin memarı" poemasının, "Dan yeri sökülləndə", "Körpü", "Məngənə və ya Kor Aşığın işığı", "Eşqin tikan dairəsi", "Qarışqalar yuvasını dəyişmir", "Arı yuvası", "İşıqlı, nurlu sabah" pyeslərinin müəllifidir. " Müstəqil vətənin memarı" poeması səkkiz dilə (rus, ingilis, alman, fransız, italyan, ispan, ərəb, fars) tərcümə olunaraq kitab şəklində çapa hazırlanmış, "Dan yeri sökülləndə" və "Körpü" pyesləri tamaşaya qoyulmuşdur. AMEA-nın dissertantıdır. Teatr Xadimləri İttifaqının, Yazıçılar Birliyinin və Yeni Azərbaycan Partiyasının üzvüdür. Ailəlidir. 4 övladı var...

Müxtəlif tədbir və qastrollarda olduğundan İftixar müəllimlə neçə vaxt idi ki, görüşə bilmirdik. Təsadüf elə gətirdi ki, uzun ayrılıqdan sonra nazirlikdə onunla üz-üzə gəldik. Özü də elə bir gündə ki, bir həftə sonra 50 yaşı tamam olacaq, yubileyini qeyd edəcəkdi.

**Bu şərəfli ömrün yarıdan çoxu səhnədə keçib, sənətdə əriyib, İftixar Piriyevə şan-şöhrət qazandırıb, başucalığı gətirib.Yaradıcı kollektivimiz və çoxsaylı oxucularımız adından yubilyarı ürəkdən təbrik edir, ona yeni-yeni yaradıcılıq uğurları diləyirik.**

**● Y.ARAPLI**

